AZƏRBAYCAN XƏBƏRLƏRİ

# 'Giləzi-Quşçuluq'un direktoru həbs edilib – anbarda xarab ət tapıldığı bildirilir

Noyabr 25, 2026




Quşçuluq fabriki

"Giləzi-Quşçuluq Aqrar-Sənaye Kompleksi" MMC-nin direktoru həbs olunub. Müəssisənin bir neçə məsul şəxsi təhlükəli toyuq əti məhsullarının dövriyyəsində günahlandırılır. Baş Prokurorluq və Qida Təhlükəsizliyi Agentliyinin birgə məlumatında vurğulanır ki, 400 tondan artıq təhlükəli toyuq əti məhsulunun dövriyyəsində şübhəli sayılan üç nəfər məsuliyyətə cəlb olunub.

Rəsmi qurumlar habelə bildirir ki, müəssisənin anbarlarında yararlılıq müddəti bitmiş və korlanma əlamətləri olan toyuq əti aşkarlanıb. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi açılıb.

İttihamda müəssisəyə faktiki rəhbərlik edən şəxsin, direktorun və kəsim sexi müdirinin adları keçir. İstintaq müəssisənin faktiki rəhbərini bu işin əsas təşkilatçısı hesab edir.

Rəsmi açıqlamada deyilir: **"Toplanmış ilkin sübutlar əsasında onlar Cinayət Məcəlləsinin 200-3.2.2 və 200-3.2.3-cü (bilə-bilə insan həyatı və sağlamlığı üçün təhlükəli qida məhsullarının satış məqsədilə saxlanmasının qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və külli miqdarda törədilməsi), həmçinin 308.2-ci (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs kimi istintaqa cəlb olunublar".**

Binəqədi rayon Məhkəməsinin qərarı ilə direktor barəsində həbs, digər iki nəfər haqqında isə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hələlik adları çəkilən şəxslərin özlərindən və vəkillərindən bu ittihamlara münasibət öyrənmək mümkün olmayıb.

İttihamlar sübuta yetirilərsə, onları 3 ildən 8 ilə qədər həbs cəzası gözləyir.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur